# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## *Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı*



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

**Ç. Abdullayevin «Gedər-gəlməz» romanı**

Bədii əsər təkcə duyğuların «nazını» çəkməməlidir. Bədii əsər oxucuda təkcə nəyəsə qarşı nifrət yaratmaq, nəyisə təbliğ etmək prinsiplərini qorumamalıdır. Oxucunun o da elmi, publisist əsərlər kimi bilik dairəsini genişləndirməlidir. Məsələlərin qaranlıq qalmaması üçün bu priyomlar, yazıçının əldə etdiyi zəngin biliklərdən yararlanması özü yazıçının yaradıcılığına məsuliyyət hissindən xəbər verir. Yazıçı böyük bir səbrlə, təmkinlə incə detallarla oxucunun hissinin, fikrinin buradakı hadisələrə, mövzulara cəlb edilməsinə nail olur, o dövrün, zamanın atmosferasına dərindən bələd olduğunu göstərmək qabiliyyətini nümayiş etdirmiş olur. Yazıçı diqqəti, müşahidəsi burada güclüdür, yazıçı surətlərin dili ilə əfqanların mehriban, xeyirxah, namuslu, alicənab, cəsur xalq olduğunu, son tikəsini də kiminləsə bölməyə hazır olduğunu, quldur dəstələri istisna olmaqla əksəriyyətin əsirlərə də toxunmadığı, müsəlman kimi rəftar etdiyini söyləyir.

Yazıçı bu əsərdə Şərq xalqlarının min illik əfsanələrindən süzülüb gələn Leyli-Məcnun saflığı, müqəddəsliyi ilə boyanmış təmiz, saf sevgini təsvir edəndə, Şərq koloritini qoruyub saxlayır, qısa bir epizod oxucu yaddaşına həkk olunur. Qanlar, qadalar, ölüm, dəhşət başı üzərində dolaşan əfqan qızının saf məhəbbəti, bu yerlərə «xilaskar» bir ordunun zabiti kimi göndərilmiş, əslində xalqın şurəviləri sevməyən müxalif qüvvələrinin iradəsini qırmaq, onu özlərinə tabe etmək istəyən sovet siyasətinin müdafiəçisi olan, sosializm ideyaları ilə «yüklənmiş» Sveşnikovun acı taleyi müharibəyə nifrət doğurur. Əfqanıstana göndərilən bu qrupun komandiri olacaq Sveşnikov döyüşdə də sevgidə olduğu qədər «usanmayan», əslən Kiyevlidir. O, başda özü olmaqla kəşfiyyat idarəsi tərəfindən Əfqanıstanın şimalındakı Bilçıraq şəhərinə ezam olunur. Əldə olan məlumatlara görə, «ölkənin şimalını-əfqanların Məzari Şərifdəki ziyarətgahlarını-cənubu ilə birləşdirən əsas magistrala» zərbənin buradan vurulması gözlənilir. Pusquların burada qurulduğunu, mücahidlərin tez-tez burada görünüb yox olmalarını, burada əfqan ordusunun olmamasını, ancaq qaravul və əfqan ordusunun iki natamam rotasının yerləşdiyini, döyüşlərin buradan uzaqda getdiyini nəzərə alan sovet ordusu buraya nəzarət etməyi məqsədəuyğun bilir və göndərilən qrupun rəhbəri sovet zabiti burada əfqan qızına vurulur. Dəfələrlə bir yerdən başqa yerə getməli olan Sveşnikov və qız müharibə, mücahidlərin toqquşması, düşmən pusquları, tapılmamış minalar, yoldaşlarının ölümü, mərmilərin partlayışları altında, qan və ölüm -«bir sözlə, müharibədə normal insanı vəhşiyə çevirən» bir şəraitdə bir-birinin vurğunu olurlar. Tərbiyə və vərdişlər, adət-ənənə, Şərq qadının əxlaq kodeksləri əfqan qızının dilini bağlayır. Sveşnikovu da nə onu gördüyü müddətdə, nə də geri qayıdıb-SSRİ-də iki il qaldığı müddətdə həyatından nə qədər qadınlar gəlib keçsə də «Bilçıraqlı qız haqqında» xatirələri bir an rahat buraxmır. Yenidən «Əfqanıstana getmək xahişi ilə» müraciət edir. 88-ci ilin axırlarında Əfqanıstandan çəkilməyə başlayan sovet ordusu «siyasi rəhbərliyin iradəsini yerinə yetirir, ölkədən qoşunu çıxarmağa başlayır. Bütün razılaşmalara baxmayaraq qızmış mücahidlər ordunun «yol boyu hərəkəti zamanı» ona ölümcül ağır zərbələr vururdu. Belə olduğu üçün qərbə BKİ zabitləri-Sveşnikov da daxil olmaqla qrup göndərilir ki, «onlar geri çəkilən hissələri mücahidlərin niyyətləri haqqında informasiya ilə təmin etsinlər». Üç il yarımdan sonra Bilçırağa gəlməyə müvəffəq olan mayor gecəni gözünü yummur, səhər tezdən qızı ilk dəfə gördüyü tanış quyunun yanına tələsir. «Yol uzun idi. Onların qaldığı köhnə ev çoxdan dağıdılmışdı, o, uzaqdan qızın tanış cizgilərini sezdi və gözlərinə inanmadı. Elə bil heç nə dəyişməmişdi. Qız öz sevimli yerində oturmuşdu, vedrələrini əlində tutub həmin gözəl və həzin mahnısını oxuyurdu. Sveşnikov yaxına gəldi. Qız sanki nə isə hiss edib gözlərini qaldırdı.

Üç il yarım. Oğlan o zaman vidalaşmadan getmişdi və onda hər şeyi onun gözlərindən oxuyurdu. O, bura qış-yay hər gün hər səhər öz «şurəvi»sini yenidən görmək üçün gəlmişdi. Qız onu min iki yüz gün bu quyunun yanında gözləmişdi. Sanki onun gec-tez gələcəyini, özü də mütləq gələcəyini hiss etmişdi. Qızın gözlərindən yaş axırdı. Onun sevgisinin sonsuzluğunu anlamış oğlan hisslərin gücündən qorxmuş və sarsılmış halda qabağında dayanmışdı. Az sonra ona tərəf addımlamışdı. Üzbəüz durmuşdular, lap yaxın, əl uzatsan çatardı. Oğlan bilirdi ki, bu məsafəni adlamaq qız üçün çətindir. Qız da bilirdi ki, heç vaxt ona tərəf addım ata bilməyəcək. Lakin onlar danışırdılar, bir-birinin dilini bilməyən, adətləri, tərbiyələri, həyatın bütün axarı ilə ayrılmış bu iki insan özlərinin başa düşdüyü dildə danışırdılar...».

Sveşnikov elə həmin axşam şəhərə mücahidlərin basqınında həlak olur. Onun və digər həlak olan yoldaşlarının cənazəsi bütün gecə məscidin qarşısında qalır. «Səhər isə Sveşnikovun üzündə ağ, zərif incə qız şalı tapıldı. Heç kim onun bura necə gəlib düşdüyünü bilmirdi... Səhəri qızın cəsədi quyudan tapıldı». Əsərin əsas qəhrəmanı Asanovun bildiyi bir şey vardı ki, hələ ölümündən əvvəl Sveşnikov üç il yarım həsrətlə sevdiyni gözləyən qızın qarşısında günahkar kimi bəlkə də elə o gün özünə «ölüm axtarırmış, günahını yumaq istəyən və sevgisinin bütün faciəviliyini anlayan biri kimi», bəlkə də, əksinə, heç ölüm haqqında düşünmürmüş. Bütün sevənlər taleyinin onu qoruduğuna inanırlar».

Yazıçı çox təsirli şəkildə müsəlman əfqan qızı ilə, anası ukraynalı, bəlkə də damarlarından «qıpçaq, krım tatar» qanı axan, tünd qara gözlü Sveşnikovun məhəbbət macərasını təsirli şəkildə qələmə alır. Bir ölkəyə «xilaskar» kimi gəldiyini düşünən sovet zabitinin onlara qarşı döyüşdə həlak olan mücahidin bacısıyla-əfqan qızı ilə arasındakı bu ülvi, saf məhəbbət, daha doğrusu, sonu faciə ilə bitən nakam məhəbbət oxucunu sarsıtmaya bilməz.

Asanov döyüş generalı, əfsanəvi Bars, dəhşətli döyüşlərdən çıxmış bir cəsur döyüşçü olmaqla bərabər müsəlmançılığına, dininə, imanına itaətkardır. O, düşmənini belə öldürməli olsa da, onları müsəlman adəti ilə dəfn etdirir, həlak olmuş müsəlman-əfqan, tacik, türkmən (fərqi yoxdur) döyüşçü mücahid müsəlmanların cəsədləri üstündə dua oxuyur. O, əsl dostdur. Onun dostu Əfqanıstanda əsir düşür, müsəlmançılığı qəbul edir. O zaman Asanov özünə söz verir ki, «onu buraxsalar, hətta öz düşmənlərini də dəfn edəndə dini qaydalara riayət edəcək».

Onun dostu kapitan Kçini və beş əsgərini mücahidlər əsir götürəndə Asanov bundan xəbər tutur, onu əsir götürən mücahidləri iki həftə izləyir. Nəhayət, dağlara sıxışdırılan mücahidlər barışıq istəyəndə (bu da müharibənin paradokslarından biri idi. Tərəflər barışığı konkret hansısa şəhərdə və ya ərazidə elan edirdilər) mücahidlər tərəfindən danışığa gələn Şeyx Qurbandan əsirləri istəyəndə Şeyx Qurban bildirir ki, «səni bu dağlarda yaxşı tanıyırlar. İnsanlar sənə inanır, bütün puştular bilir ki, sənin sözün qanundur. Heç vaxt heç kimi aldatmamısan». Ona görə adamlarını xatasız buraxacaqlarını, bununla belə bir zabit kimi ondan basdırılan müsəlman yanında yasin oxumağı bacarmayan molla olmasa, onun özünün dua oxumasını istəyir və Asanov da bir zabit kimi söz verir. Amma azad olunanlar içərisində Kçin (o ağır yaralı olduğu üçün onu Urquna göndərmişdilər) görməsə də, Asanov o gündən verdiyi sözə əməl edir.



Kçin surəti əsərdə Əfqan-sovet hərbi müdaxiləsinin bir çox məqamlarına aydınlıq gətirmək üçün oxucuya çox şey verir. Qırmızı Xaç həkimi vasitəsi ilə həyata qayıdan Kçin bu düşərgədə əsir kimi qalsa da, o, burada yaşayan çoxlu qoca, cavan, uşaqlar görür. Qışlaqlarının bombarduman edildiyindən dağlara çəkilən, ailəsini, torpağını müdafiə etmək üçün əlinə silah alan mücahidlərlə yaxından tanışlıq ona bir sıra mətləblərə aydınlıq gətirməkdə kömək edir. Dinsiz, allahsız, ateist «şurəvi»lər din iman sahibi əfqanlar üçün qorxu yaradırdı. O, bu sadə xalqla yaxından tanış olduqca müharibəni öz-özlüyündə analiz edir. Özü də böyük uzaqgörənliklə təhlil edir, müəyyən nəticələrə gəlir. Əfqan siyasi liderlərinin, sovet rəhbərliyinin uzaqgörməzliyi, hərbi rəhbərliyin işini dərindən bilməməsi insanların «80-ci illərdə kütləvi məhvinin» mənbəyi oldu. Sovet ordusunun bu ölkəyə girməsi bu xalqı vətəndaş qarşıdurmasına apardı və yazıçı qardaşı qardaşa qarşı qoyan bu mübarizənin acı nəticələrini hələ də dadan əfqan xalqının faciəsinə laqeyd qala bilmir: «Əfqanıstan sindromu»nun acı, ağır təəssüratı, Əfqanıstanda vətəndaş müharibəsinin indiyədək getdiyini və bir dövlətin minlərlə vətəndaşının öz həmvətənini, dindaşını, qanqardaşını öldürdüyünü necəsə unutdurmuşdur. Bəzi əfqan ailələrində vətəndaş müharibəsindəki epizodlar güzgü kimi təkrarlanırdı: şəhərə qazanc dalınca gedən böyük oğul, bölük və ya batolyon komandiri, Əfqanıstan Demokratik Partiyasının fəalı, qışlaqda böyüyən kiçik qardaş isə mücahid bölüyünün komandiri olur. Bədbəxt ana isə Allaha dua edir ki, hər iki oğlu salamat olsun». Əzablı ölümə məhkum edilmiş xalqın faciəsini görən Kçin bu müharibədə anlayır ki, «bütöv bir xalqa qalib gəlmək olmaz, onu yalnız məhv etmək olar». Ağır döyüşdə 4 oğlunu və ərini itirən ana öz dərdinə yas tuta-tuta səhəri gün 13 yaşlı yeganə sağ qalan qızının əlindən tutub onu həlak olan qardaşlarının əvəzinə qəbul etməyi xahiş edəndə Kçin anlayır ki, bu müharibə getdikcə «xalqınkılaşır». Və buna görə də anlayır ki, bütöv bir xalqa qalib gəlmək olmaz.

Kçini yazıçı müsəlman aləminə «ötürməklə», onu əsirlikdə saxlatmaqla 70 il Sovet ideologiyasının inkişaf etdirməyə çalışdığı bir çox əsassız, uydurma, mənasız ideologiyaların çürüklüyünü də, ateizmin eybəcər mahiyyətini də ona dərk etdirməklə bir növ insanın dininə, etiqadına, adət-ənənəsinə, milli-mənəvi dəyərlərinə müqəddəs hisslərlə yanaşmağın zəruriliyini ön plana çəkir. Sovet ordusu özüylə Əfqan torpağına girəndə ikinci bir silah kimi ateizmi gətirdi və bununla da elə özü öz qılıncını öz boynunun kökünə dirədi və bir də günahsız xalqın ikinci bir faciəsinə yol açdı. Dininə, əqidəsinə sədaqətli əfqan ruhaniləri, müsəlmanları «şurəvi»lərin bu ideyalarına qarşı çıxdı. Ateist ruhda böyüyən Kçinə (mücahidlərin rəhbərinin təziqiyi ilə onlara qarşı döyüşdə komandanlıq etdiyini gizlədən, əsl adını deməyən, özünü həlak olmuş yoldaşı Viktor Kosolapov kimi təqdim edən Kçinə) inanmaq üçün müsəlmançılığı qəbul etməyi tələb edirlər. Kommunist kimi sırf ateizm ruhunda tərbiyə olunmuş əsl hərbi kəşfiyyatçı kimi şeyxin də şübhələrinə əsas verməmək üçün «allahsızlar üçün» çap olunan kitabları oxumalı olur. Amma bu kitablarla onun gözü qarşısında yeni aləm açılır. «Müsəlman dünyasının İsa peyğəmbəri, onun anası Məryəm ananı, sırf Bibliya qəhrəmanı olan İbrahimi, Cəbrayılı, Musanı qəbul etdiyini öyrənəndə çox təəccüblənir. O 1500 illik tarixi olan kitabdakı müdrikliyə, bu həqiqətlərə, ateizmdən mühazirə deyən müəllimlərindən çox inandığına təəccüb edərək, daha yaxşı qavrayırdı. Tarixdəki bəzi məsələləri isə ümumiyyətlə ilk dəfə öyrənirdi və təhsil müəssisələrində dünya mədəniyyətinin hansı qatlarının onlardan gizlədildiyini anlamağa başlayırdı. Bununla belə, illərlə əsirlikdə qalan, xaricdə, Pakistanda yaşayan, nəhayət öz ölkəsinə qayıdan pioner uşaqlığı, komsomol gəncliyi yaşayan böyük bir Sovetlər ölkəsinin vətəndaşı olan Kçin ölkəsinə elə bir vaxtda qayıdır ki, artıq xalq keçmiş sistemi dəyişib. İnsanların, zabitlərin şüuru, ölkənin quruluşu dəyişib və o özü də hamı üçün yadlaşıb. İllərlə bir ideyaya, bir vətənə xidmət edən, 6 il əsirlikdə oturan, indi isə gördüklərindən ümidsizləşən Kçin 90-cı ilin oktyabrında Rusiyanın Ali sovetinin «Öz ümid və inamının son dayağını müdafiə edərkən» həlak oldu. Baş verən dəyişiklikləri heç cür başa düşməyən adam 8 il əvvəl döyüşmək üçün tərk etdiyi vətəni üçün yadlaşdı.

**(Davamı var)**